## UNEP-in icraçı direktoru: İqlim dəyişikliyi ilə mübarizədə Azərbaycan böyük işlər görür

İqlim dəyişikliyi ilə mübarizədə Azərbaycan böyük işlər görür. Bu mövzuda bütün dünya qətiyyətli mövqe nümayiş etdirməlidir.

AZƏRTAC xəbər verir ki, bu sözləri BMT Baş katibinin müavini və UNEP-in icraçı direktoru İnger Andersen COP29-la bağlı keçirilən brifinqdə deyib.

O qeyd edib ki, COP29-un Azərbaycanda keçirilməsi böyük addımdır: “Prezident İlham Əliyevə ətraf mühitin mühafizəsi istiqamətində gördüyü işlərə görə təşəkkür edirəm. Hazırda Bakıda COP29-a hazırlıqla bağlı böyük işlər görülür. Ümid edirəm ki, COP29 çərçivəsində maliyyələşmə paketi ədalətli şəkildə olacaq”.

**AZƏRTAC**
**2024, 27 iyun**